Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2017-ci il 29 dekabr
tarixli 615 nömrəli qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

## “Lisenziyalar və icazələr” portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər

| Sıra №-si | İnformasiya sisteminin adı | İnformasiya sistemindən əldə olunan məlumatlar | Son müddət |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Azərbaycan Respublikasının Vergilər Nazirliyi üzrə | | |
| 1.1. | Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi | - hüquqi şəxsin adı<br>- fərdi sahibkarın soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi<br>- hüquqi şəxsin ünvanı<br>- fərdi sahibkarın yaşadığı ünvan<br>- hüquqi şəxsin tipi (kommersiya və ya qeyri-kommersiya)<br>- hüquqi şəxsin və ya fərdi sahibkarın VÖEN-i<br>- VÖEN-in verilmə tarixi<br>- vergi ödəyicisinin statusu (aktiv, dayandırılmış, bağlı)<br>- vergi ödəyicisinin fəaliyyətinin dayandırılma tarixi<br>- vergi ödəyicisinin fəaliyyət növü (növləri)<br>- obyektin kodu<br>- obyektin ünvanı<br>- hüquqi şəxsin rəhbərinin soyadı, adı, atasının adı və fərdi identifikasiya nömrəsi, əlaqə nömrəsi<br>- fərdi sahibkarın əlaqə nömrəsi | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə | | |
| 2.1. | “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi | - şəxsin soyadı, adı, atasının adı<br>- şəxsin vətəndaşlığı<br>- şəxsiyyəti təsdiq edən sənədin növü, seriyası və nömrəsi<br>- şəxsin doğulduğu yer və tarix<br>- şəxsin yaşayış yeri<br>- şəxsin cinsi<br>- şəxsin fərdi identifikasiya nömrəsi<br>- şəxsiyyəti təsdiq edən sənədin verilmə tarixi<br>- şəxsiyyəti təsdiq edən sənədin etibarlılıq müddəti<br>- şəxsiyyəti təsdiq edən sənədi verən orqan | 1 mart 2018-ci il |
| 2.2. | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi İnformasiya Sistemi | - nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin seriyası və nömrəsi<br>- nəqliyyat vasitəsinin qeydiyyat nişanı<br>- nəqliyyat vasitəsinin markası, modeli, tipi, mühərrik nömrəsi, buraxılış ili, ban nömrəsi<br>- nəqliyyat vasitəsinin sahibi barədə məlumat (hüquqi şəxsin adı, fiziki şəxsin soyadı, adı, atasının adı)<br>- nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin verilmə tarixi<br>- nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarlılıq müddəti<br>- nəqliyyat vasitəsinin sonuncu texniki baxışdan keçdiyi tarix | 1 mart 2018-ci il |
| 3. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə | | |
| 3.1. | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sistemi | - əmək müqaviləsinin bağlanılması ilə bağlı bildirişin nömrəsi və sistemə daxil edildiyi tarix<br>- işəgötürən barədə məlumat (hüquqi şəxsin adı, fiziki şəxsin soyadı, adı, atasının adı, VÖEN-i)<br>- işçi barədə məlumat (soyadı, adı, atasının adı, qeydiyyatda olduğu ünvan, şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, iş stajı)<br>- iş yeri barədə məlumat (iş yerinin adı, əsas və ya əlavə olması barədə məlumat, işçinin məşğulluq təsnifatı və əmək müqaviləsi üzrə vəzifəsi)<br>- əmək müqaviləsinin bağlandığı tarix və müddət<br>- əməyin ödənilməsinin işəmuzd və ya vaxtamuzd olması barədə məlumat | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 4. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə | | |
| 4.1. | “Elektron notariat” informasiya sistemi | Sənədlərin üzərində yerləşdirilmiş ştrixkod (barkod) nömrəsi, bu nömrə olmadıqda isə həmin sənədin reyestr nömrəsi və tarixi əsasında aşağıdakı məlumatlar əldə olunur:<br>1. daşınmaz əmlakın icarəyə və ya istifadəyə verilməsinə dair müqavilələr üzrə:<br>1.1. notariat hərəkətinin qeydiyyat məlumatları (rəsmiləşdirilmə tarixi, əqdin son qüvvədə olma tarixi, reyestr nömrəsi, notariat kontorunun adı, notariusun soyadı, adı və atasının adı);<br>1.2. icarəyə və ya istifadəyə verən və götürən şəxslər barədə məlumat (fiziki şəxs olduqda - soyadı, adı və atasının adı, qeydiyyat ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, hüquqi şəxs olduqda - adı və hüquqi ünvanı);<br>1.3. icarəyə və ya istifadəyə verilən daşınmaz əmlak barədə məlumat (əmlakın növü, ünvanı, ümumi sahəsi, hüquqmüəyyənedici sənədin növü, reyestr və qeydiyyat nömrəsi, daşınmaz əmlakın yüklülüyü barədə məlumat (yüklülüyün növü və müddəti);<br>2. nəqliyyat vasitəsinin icarəyə və ya digər əşya hüququ üzrə istifadəyə verilməsinə dair müqavilələr üzrə:<br>2.1. notariat hərəkətinin qeydiyyat məlumatları (rəsmiləşdirilmə tarixi, əqdin son qüvvədə olma tarixi, reyestr nömrəsi, notariat kontorunun adı, notariusun soyadı, adı və atasının adı);<br>2.2. nəqliyyat vasitəsinin icarəyə və ya digər əşya hüququ üzrə istifadəyə verən və götürən şəxslər barədə məlumat (fiziki şəxs olduqda - soyadı, adı və atasının adı, qeydiyyat ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, hüquqi şəxs olduqda - adı və hüquqi ünvanı);<br>2.3. icarəyə və ya digər əşya hüququ üzrə istifadəyə verilən nəqliyyat vasitəsi barədə məlumat (dövlət qeydiyyat nişanı, markası, mühərrik nömrəsi, buraxılış ili, qeydiyyat şəhadətnaməsinin seriyası, nömrəsi və verilmə tarixi);<br>3. nəqliyyat vasitəsinə dair rəsmiləşdirilmiş etibarnamələr üzrə:<br>3.1. notariat hərəkətinin qeydiyyat məlumatları (rəsmiləşdirilmə tarixi, etibarnamənin son qüvvədə olma tarixi, reyestr nömrəsi, notariat | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | kontorunun adı, notariusun soyadı, adı və atasının adı);<br>3.2. nəqliyyat vasitəsinə dair etibarnamə verən və etibar edilən şəxslər barədə məlumat (fiziki şəxs olduqda - soyadı, adı və atasının adı, qeydiyyat ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, hüquqi şəxs olduqda - adı və hüquqi ünvanı);<br>3.3. etibarnamə verilmiş nəqliyyat vasitəsi barədə məlumat (dövlət qeydiyyat nişanı, markası, mühərrik nömrəsi, buraxılış ili, qeydiyyat şəhadətnaməsinin seriyası, nömrəsi və verilmə tarixi);<br>4. xaricdə verilmiş sənədlərin tərcüməsinin düzgünlüyünün, eləcə də sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi üzrə:<br>4.1. notariat hərəkətinin qeydiyyat məlumatları (rəsmiləşdirilmə tarixi, reyestr nömrəsi, notariat kontorunun adı, notariusun soyadı, adı və atasının adı);<br>4.2. tərcüməsinin, eləcə də surət və çıxarışlarının düzgünlüyü təsdiq edilmiş sənəd barədə məlumat (sənədin adı, verilmə tarixi, nömrəsi, verən orqan) | |
| 4.2. | “Qeyri-kommersiya hüquqi şəxslər” avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi | - qeyri-kommersiya hüquqi şəxsin adı və təşkilati-hüquqi forması<br>- qeyri-kommersiya hüquqi şəxsin ünvanı<br>- qeyri-kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatına alındığı tarix və qeydiyyat nömrəsi<br>- qeyri-kommersiya hüquqi şəxsinin rəhbərinin soyadı, adı, atasının adı | 1 mart 2018-ci il |
| 5. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi üzrə | | |
| 5.1. | “Elektron hökumət” portalı | - dövlət informasiya ehtiyatlarından və fərdi məlumatların informasiya sistemlərindən “Elektron hökumət” şlüzü vasitəsilə əldə olunan məlumatlar | 1 mart 2018-ci il |
| 6. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi üzrə | | |
| 6.1. | Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarə Edilməsi Sistemi | - hüququ rəsmiləşdirilən şəxs<br>- daşınmaz əmlakın növü<br>- daşınmaz əmlakın ünvanı<br>- daşınmaz əmlak üzərində mülkiyyət növü<br>- daşınmaz əmlakın ümumi sahəsi (kvadratmetrlə)<br>- hüquq sahibinin payı, reyestr nömrəsi, qeydiyyat nömrəsi və qeydiyyat tarixi | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | - daşınmaz əmlak ümumi birgə mülkiyyətdə olduqda - hər bir hüquq sahibinin adı, qeydiyyat nömrəsi və qeydiyyat tarixi<br>- daşınmaz əmlak ümumi paylı mülkiyyətdə olduqda - hər bir hüquq sahibinin adı, qeydiyyat nömrəsi, qeydiyyat tarixi və payı | |
| 6.2. | Ünvan Reyestri İnformasiya Sistemi | - daşınmaz əmlak obyektlərinin əvvəlki ünvan məlumatları<br>- daşınmaz əmlak obyektlərinin yeni ünvan məlumatları | 1 mart 2018-ci il |
| 7. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üzrə | | |
| 7.1. | Tibb kadrlarının vahid reyestri | - tibb və ya əczaçılıq təhsili haqqında dövlət sənədinin verilmə tarixi və nömrəsi<br>- şəxsin bitirdiyi təhsil müəssisəsinin (müəssisələrinin) adı, bitirdiyi il və ixtisası<br>- şəxsin praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin verilmə tarixi və nömrəsi<br>- sertifikasiya şəhadətnaməsi üzrə praktik fəaliyyətlə məşğul olmaq üçün icazə verilmiş ixtisas<br>- sertifikasiya şəhadətnaməsi verilmiş şəxsin həkim, yaxud orta tibb işçisi olması barədə məlumat<br>- şəxsin praktik tibb və ya əczaçılıq fəaliyyəti üzrə işlədiyi yer və təcrübəsi barədə məlumatlar<br>- xarici ölkədə tibb və ya əczaçılıq sahəsi üzrə hazırlıq keçən şəxsin Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa icazəsi olması barədə şəhadətnamənin verilmə tarixi, nömrəsi və həmin şəhadətnamə üzrə praktik fəaliyyətlə məşğul olmaq üçün icazə verilmiş ixtisas | 1 mart 2018-ci il |
| 7.2. | Vətəndaşın Elektron Sağlamlıq Kartı Sistemi | - avtomobil sürücüsünün sonuncu tibbi müayinədən keçməsi tarixi və sağlamlıq vəziyyəti barədə məlumatlar | 1 mart 2018-ci il |
| 8. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə | | |
| 8.1. | Milli Təhsil Məlumat Bazası | - şəxsin soyadı, adı və atasının adı<br>- təhsil haqqında sənədin seriyası və nömrəsi<br>- təhsil haqqında sənədin verilmə tarixi<br>- təhsil haqqında sənədi verən təhsil müəssisəsinin adı<br>- təhsil sənədi üzrə ixtisas<br>- təhsil səviyyəsi | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 8.2. | Azərbaycan Respublikası ərazisində tanınan və ekvivalentliyi müəyyən edilmiş (nostrifikasiya olunmuş) xarici dövlətlərin ali təhsil müəssisələrinin diplomlarının sahibləri barədə məlumat bazası | - şəxsin soyadı, adı və atasının adı<br>- diplomun seriyası və nömrəsi<br>- diplomun verilmə tarixi<br>- diplomu verən ali təhsil müəssisəsinin adı<br>- diplomu verən ali təhsil müəssisəsinin yerləşdiyi ölkə<br>- diplom üzrə ixtisas<br>- diplomun nostrifikasiya olunma tarixi<br>- nostrifikasiyadan sonra verilmiş sənədin seriyası və nömrəsi<br>- uyğunlaşdırılmış ixtisas<br>- təhsil səviyyəsi | 1 mart 2018-ci il |
| 9. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzrə | | |
| 9.1. | İstismara qəbul olunmuş maye və təbii qaz təsərrüfatı obyektlərinin Reyestri | - maye və təbii qaz təsərrüfatı obyektinin istismara qəbulu aktının tarixi və nömrəsi<br>- maye və təbii qaz təsərrüfatı obyektinin yerləşdiyi ünvan<br>- maye və təbii qaz təsərrüfatı obyektini istismar edən şəxs barədə məlumatlar (hüquqi şəxs olduqda - adı, təşkilati-hüquqi forması, fiziki şəxs olduqda - soyadı, adı, atasının adı) | 1 mart 2018-ci il |
| 9.2. | Təhlükə potensiallı obyektlərdə istifadə olunan texniki qurğuların və avadanlıqların texniki təhlükəsizlik sertifikatlarının informasiya sistemi | - texniki təhlükəsizlik sertifikatını verən orqanın adı<br>- texniki təhlükəsizlik sertifikatının qeydiyyat tarixi və nömrəsi<br>- texniki təhlükəsizlik sertifikatının qüvvədə olma müddəti<br>- texniki təhlükəsizlik sertifikatı təqdim olunan təsərrüfat subyekti barədə məlumat (hüquqi şəxs olduqda - adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fiziki şəxs olduqda - soyadı, adı, atasının adı və yaşayış ünvanı, VÖEN-i)<br>- təhlükə potensiallı obyektin adı və ünvanı<br>- texniki təhlükəsizlik sertifikatı verilən qurğunun və avadanlığın adı, tipi və mənşəyi | 1 mart 2018-ci il |
| 9.3. | Təhlükə potensiallı obyektlərin dövlət reyestri | - təhlükə potensiallı obyektin adı<br>- təhlükə potensiallı obyektin dövlət reyestrində qeydiyyata alınma tarixi, qeydiyyat nömrəsi və etibarlılıq müddəti<br>- təhlükə potensiallı obyektin istismara verildiyi tarix<br>- təhlükə potensiallı obyekti istismar edən şəxs barədə məlumatlar (hüquqi şəxs olduqda adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fiziki | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | şəxs olduqda - soyadı, adı, atasının adı və yaşayış ünvanı, VÖEN-i)<br>- qeydiyyat orqanının adı | |
| 10. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi üzrə | | |
| 10.1. | Dövlət Xidmətlərinin Elektron Reyestri | - xidmət təminatçıları tərəfindən həyata keçirilən xidmətlər haqqında məlumatlar | 1 mart 2018-ci il |
| 10.2. | "Asan ödəniş" sistemi (asanpay) | - ödənişin həyata keçirilməsi üçün veb-servis | 1 mart 2018-ci il |
| 11. | Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üzrə | | |
| 11.1. | Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilən təsdiqedici sənədlərin informasiya ehtiyatı | - təsdiqedici sənədin qeydiyyat tarixi və qeydiyyat nömrəsi<br>- təsdiqedici sənədin verildiyi şəxs barədə məlumat (hüquqi şəxs olduqda - adı, təşkilati-hüquqi forması, fiziki şəxs olduqda - soyadı, adı, atasının adı)<br>- təsdiqedici sənəddə göstərilən fəaliyyət növü<br>- təsdiqedici sənəddə göstərilən fəaliyyətin həyata keçiriləcəyi ünvan<br>- təsdiqedici sənəddə göstərilən avadanlıqlar barədə məlumat<br>- təsdiqedici sənədin etibarlılıq müddəti | 1 may 2018-ci il |
| 11.2. | Akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən orqanlar üzrə informasiya ehtiyatı | - akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən orqan haqqında məlumatlar (hüquqi şəxs olduqda - adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, yaşayış ünvanı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi)<br>- akkreditasiya attestatının nömrəsi, verilmə tarixi və qüvvədə olma müddəti<br>- akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən orqanın akkreditasiya sahəsi | 1 mart 2018-ci il |
| 11.3. | Uyğunluq sertifikatları üzrə informasiya ehtiyatı | - uyğunluq sertifikatını verən orqanın adı<br>- uyğunluq sertifikatını verən orqanın akkreditasiya (sertifikatlaşdırma) sahəsi<br>- uyğunluq sertifikatının verilmə tarixi<br>- uyğunluq sertifikatının qüvvədə olma müddəti<br>- uyğunluq sertifikatı təqdim olunan təsərrüfat subyekti barədə məlumat (hüquqi şəxs olduqda - adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fiziki şəxs olduqda - soyadı, adı, atasının adı və yaşayış ünvanı, VÖEN-i)<br>- uyğunluq sertifikatı verilən məhsul (xidmət) barədə məlumat (adı, miqdarı, kodu, istehsal olunduğu ölkə) | 1 mart 2018-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | - texniki-normativ aktın işarəsi<br>- uyğunluq sertifikatının tanındığı ölkə | |
| 12. | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti üzrə | | |
| 12.1. | Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi | - Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış, habelə müvəqqəti olma müddəti uzadılmış və ya qaçqın statusu almış şəxslər haqqında məlumatlar<br>- Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşayan, habelə Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılmış və ya qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında məlumatlar<br>- əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı haqqında məlumatlar | 1 mart 2018-ci il |
| 13. | Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi üzrə | | |
| 13.1. | “Tələbə-məzun” Dövlət Elektron Məlumat Sistemi | - şəxsin soyadı, adı və atasının adı<br>- təhsil müəssisəsinin adı<br>- təhsil haqqında sənədin seriyası və nömrəsi<br>- təhsil haqqında sənədin verilmə tarixi<br>- təhsil sənədi üzrə ixtisas<br>- təhsil səviyyəsi | 1 mart 2018-ci il |